# Milli Məclisin və Rusiya Federal Məclisinin İkitərəfli parlamentlərarası komissiyasının növbəti iclası keçirilib

**İyunun 22-də Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli əməkdaşlığı üzrə parlamentlərarası komissiyasının videokonfrans formatında 17-ci iclası keçirilib.**




Milli Məclisdən verilən məlumata görə, komissiyanın iclasına Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası Sədrinin müavini Qalina Karelova həmsədrlik ediblər.

İclas həmsədrlərin giriş sözləri ilə başlayıb. Milli Məclisin birinci vitse-spikeri, komissiyanın həmsədri Əli Hüseynli iclas iştirakçılarını Milli Məclisin Sədri Sahibə Qafarovanın adından salamlayıb. O, Azərbaycan və Rusiyanı birləşdirən çoxəsrlik dostluq və mehriban qonşuluq əlaqələrindən söz açıb, Azərbaycan və Rusiyanın dövlət başçılarının səyləri nəticəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsini qeyd edib.

Əli Hüseynli Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra yaranan reallıqlardan söz açıb, Azərbaycan və Ermənistan arasında sülhün və əməkdaşlığın yaradılmasında Rusiyanın göstərdiyi səyləri yüksək qiymətləndirib.

Komissiyanın həmsədri Qalina Karelova çıxışında bildirib ki, Azərbaycan Rusiya üçün dost və strateji tərəfdaş ölkədir və mövcud olan yüksəksəviyyəli münasibətlər hər iki ölkənin milli mənafeyinə cavab verir. O qeyd edib ki, Rusiya Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olunmasını və əməkdaşlığın əsasının qoyulmasını fəal şəkildə dəstəkləyir.

Federal Şuranın Sədr müavini çıxışında vurğulayıb ki, Rusiya ilə Azərbaycan arasında əlaqələrin inkişafı Cənubi Qafqazda və Xəzər dənizi regionunda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir.

Sonra iclasın gündəliyində olan məsələlərə baxılıb.

İclasda Milli Məclisin deputatları Nizami Səfərov gündəliyin "Azərbaycan və Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi və parlamentlərarası əməkdaşlığın dövlətlərarası əlaqələrin inkişafına töhfəsi haqqında", Emin Hacıyev "Rusiya-Azərbaycan regionlararası əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri haqqında", Sevinc Hüseynova "Turizm sahəsində ikitərəfli qarşılıqlı təsirin intensifikasiyası üçün əlverişli şəraitin yaradılması haqqında" məsələlərlə bağlı məruzə ilə çıxış ediblər. Onlar iqtisadi, ticari, regionlararası, parlamentlərarası əlaqələrin genişləndirilməsi, mədəniyyət, təhsil, turizm kimi sahələrdə əməkdaşlığın inkişafı perspektivləri barədə fikirlərini bölüşüblər.

Videokonfransın sonunda Azərbaycan Respublikası Milli Məclisinin və Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli əməkdaşlığı üzrə parlamentlərarası komissiyasının qarşıdakı bir il üçün iş planı və 18-ci iclası ilə əlaqədar məsələlərə də baxılıb, müvafiq qərarlar qəbul edilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 23 iyun.- S.6.